2018-ci ilin yanvar-fevral aylarında muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan ticarət əməliyyatları nəticəsində 41786,3 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi yaranmışdır.

Xarici ticarət dövriyyəsinin 87,9 faizi ixracın, 12,1 faizi idxalın payına düşmüşdür. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 36750,2 ABŞ dolları təşkil etmiş, 31714,1 Amerika Birləşmiş Ştatları dolları dəyərində müsbət saldo yaranmışdır.